# Türkdilli ölkələrin məktəbliləri Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər

## Qubada keçirilən “Türkdilli xalqların əməkdaşlığı” forumunda ermənilərin törətdikləri soyqırımından danışılıb

Martın 22-də Türkiyə, Qazaxıstan və Qırğızıstandan olan məktəblilər azərbaycanlı həmyaşıdları ilə birgə Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, Qubada keçirilən “Türkdilli xalqların əməkdaşlığı” çərçivəsində forumun iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Məktəblilər 1918-ci ildə Qubada cinayətkar erməni hərbi dəstələri tərəfindən törədilmiş soyqırımı qurbanlarının dəfn olunduğu yerdə ucaldılmış abidəni ziyarət edib, qarşısına gül dəstələri düzüblər.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Bildirilib ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Bundan sonra Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyənləşib.

Təhsil Nazirliyinin Quba rayon Uşaq-Gənclər İnkişaf Mərkəzi ilə birgə təşkil etdiyi forum Quba Gənclər Mərkəzində davam etdirilib.

Tədbir iştirakçıları mərkəzin foyesində dərnək üzvlərinin rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Forumda Təhsil Nazirliyinin nümayəndəsi Ayla Həsənova, Quba Rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyev, “Şəfəq” qəzetinin baş redaktoru Qəhrəman Əliyev və başqaları çıxış edərək ermənilərin törətdikləri soyqırımından danışıblar.

Qeyd olunub ki, Azərbaycan tarixinə XX əsrin ən faciəli soyqırımlarından biri kimi daxil olmuş qanlı faciədə bolşevik-erməni silahlı dəstələri Bakı, Quba, Şamaxı, Göyçay, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə kütləvi qətliamlar törədib, mindən artıq kənd yandırılıb və dağıdılıb. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib, Quba şəhəri talanlara və yanğınlara məruz qalıb, qəzanın müsəlman və qismən də yəhudi əhalisi kütləvi şəkildə qətlə yetirilib. Ermənilərin törətdikləri qırğınların qarşısı Nuru Paşanın rəhbərlik etdiyi xilaskar türk ordusunun köməyə gəlməsindən sonra alınıb.

Çıxışlardan sonra ermənilərin törətdikləri soyqırımı haqqında videoçarx nümayiş etdirilib.

Azərbaycan.- 2018.- 23 mart.- S.5.